# AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ BAKI LİMANININ ROLU

***Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra əsas iqtisadi islahatları başa çatdırmış və makroiqtisadi sabitliyə nail olmuşdur. Müstəqillik illəri ərzində keçdiyi inkişaf yolu, onun regional enerji və nəqliyyat mərkəzinə çevrilməsi ilə nəticələndi.***

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş məqsədyönlü siyasəti, böyük infrastuktur layihələrin həyata keçməsi və həmçinin həmin siyasətin davamçısı olan Prezident İlham Əliyev tərəfindən aparılan və həyata keçirilən reformalar Azərbaycanın dayanaqlı inkişafına səbəb oldu.

Bu müddət ərzində lazimlı enerji layihələr hayata keçdi. Həmçinin aşağıdakı qeyd etdiyimiz nəqliyyat layihələri:

– Baki beynəlxalq dəniz ticarət limanı;
– Bakı-Tiflis-Kars dəmir yolu xətti və s.

Bütün qeyd etdiklərimiz regionun inkişafına böyük təkan verdi. Ölkəmizin enerji siyasəti bu gün dünyada mühüm və strateji rola malikdir ki, bu da qloballaşan dünyada enerji təhlükəsizliyi ən ümidverici məsələlərdən biri sayılır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan 1991-ci ildə müstəqilliyi bərpa etdikdən sonra müstəqil xarici siyasət həyata keçirir və öz milli maraqlarını gerçəkləşdirir. Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrin qurulmasına, transmilli layihələrin reallaşdırıcısı olmaqla Qərb, Şərq həmçinin Şimal və Cənub arasında dəhliz rolunu oynaması kimi missianı yerinə yetirir.

Dünyada baş verən ən aktual olan qloballaşma inteqrasiya, transimilliləşmə elmi-texniki tərəqqinin, o cümlədən enerji, telekommunikasiya və rabitənin inkişafı ilə bağlıdır.

Dünyanın indiki vəziyyətində ölkələr və xalqlar arasında siyasi dialoq, iqtisadi, mədəni və ticarət əlaqələri genişlənməkdədir. XX əsrin axırlarına xas olan və sürətlə davam edən qloballaşma prosesi «mahiyət etibarı ilə» iqtisadi, formaca ideoloji bir faktordur.

Qloballaşma mahiyyət etibarı ilə qlobal sənayesinin, maliyyə sisteminin və ümumi bazarın yaradılmasını nəzərdə tutur.

Müasir dünyada mahiyyətcə, «azad ticarəti», yəni dünya iqtisadiyyatına nəzarətinin mərkəzləşdirmiş formada idarə etmək dayanır. Bu da «azad investisiya müqavilələri»nin yenidən qurulmasına şərait yaradır və nəticədə transmilli şirkətlərin təhlükəsiz və böyük mənfəət əldə etməsinə şərait yaradır.

Qloballaşmanın əsas aspektləri siyasi, ekoloji, sosial, texniki, mədəni və s. istiqamətlərdə olmasını tələb edir ki, bununla da bütün xalqlar qlobal əməkdaşlıqdan bəhrələnir. Qloballaşma ölkələr arasında əlaqələrin geniş olmasını, təmasda olmalarını təbliq edir və dünya ölkələri arasında əlaqələrin və əməkdaşlığın yaradılmasını zəruri edir. Hazırda Azərbaycan cəmiyyətində qloballaşma «inteqrasiya» və «transmilliləşmə» terminlərdən geniş istifadə edilir. «Qloballaşma» terminindən ilk dəfə 1967-ci ildə istifadə edilmişdir. Teodor Zevitt tərəfindən bazarların birlədirilməsi kontekstində işlədilmişdir. Tədqiqatçı alimlər hesab edir ki, qloballaşma dünya bazarının siyasi fəaliyyətinin sıxışdırılması və ya dəyişdirilməsi deməkdir. Nəticədə siyasətlə iqtisadiyyat arasında fərqlərin aradan qaldırılması baş verir.

Qloballaşma prosesi Azərbacanın iqtisadi, siyasi, mədəni həyatına, mədəni əxlaqi meyarlarına da təsir göstərir və dünya xalqlarından ayırmır, onlara birləşməkdə, inkişaf etməkdə əsas amillərdən biri olur və demək olar ki, Azərbaycanın Avropaya inteqrasiyası, onun qərbin sivilizasiya dəyərlərini qəbul etməsi irəliləyişə səbəb olur və öz milli və dini varlığından imtina etməsinə yol açmır.

Ümummilli liderimizin dönə-dönə qeyd etdiyi: «Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır».

Beləliklə şərq və qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu həyata keçirir.

Beynəlxalq siyasi və ticarət əlaqələrin inkişafının qanunauyğunluğu, qarşılıqlı mədəni əlaqələrin inteqrasiya prosesləri insan həyatının beynəlmilliləşdirilməsinin yeni mərhələsidir. İnterqraisya hərəkatı beynəlxalq iqtisadi prosesində öz əksini tapmış və bariz nümunəsi olaraq müvəfəqiyyətlə inteqrasiya olunan müasir tipli Avroasiya ittifaqını göstərmək olar.

Avropa ideyasının təkamül xronologiyasına nəzər saldıqda görünür ki, Avropa İttifaqının (Aİ) əsasında Avropa sivilizasiyasının yaranması və inkişafı dayanır.

İnteqrasiya termininin etimologiyasına nəzər salsaq görərik ki, «inteqrasiya» termini latın dilində «İnteqro» (bərpa, tamamlama) və «integer» (bütöv, bütövləşmə) sözlərindən əmələ gəlmiş «inteqratio» sözü ilə ifadə olunur.

Azərbaycan dilində «bütövləşmə», «tamamlama» və birləşmə mənasını verir.

Avropa məkanında inteqrasiya ideyası mürəkkəb və ziddiyətli tarixi proseslərdən, enişli-yoxuşlu yollardan keçmiş, müharibələr, savaşlar etmiş, birləşmə yolunu seçmişlər. Bu gün azad və demokratik dövlətlərin birliyi kimi Avropa faktiki olaraq vahid iqtisadiyyat sisteminə, dünyanın investisiya mərkəzinə çevrilmiş və beynəlxalq münasibətlərdə böyük rol oynayır. Avropa İttifaqı müstəqil xarici siyasət həyata keçirir, qlobal subyekt olaraq qalır, səmərəli, çoxşahəli siyasət mexanizminə malikdir. Aİ dünyada ən böyük ümumi bazara və UDM-ə malikdir. İnteqrasiya proseslərinin praktiki təhlili baxımından Aİ modelinin nəzəri ümümiliyi olan «mərhələsi» beşpilləli inkişaf konsepsiyası da diqqət cəlb edir.

Beş pillə (azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, iqtisadi ittifaq, siyasi inteqrasiya) hansı ki, hər növbəti pillə əvvəlkinin məntiqi davamıdır və istiqaməti iqtisadi birlikdən Siyasi ittifaqa istiqamətlənir.

Qeyd etmək lazımdır ki, ölkələrarası əməkdaşlığın tarixi çox qədim olmasına baxmayaraq, inteqrasiya prosesləri öz başlanğıcını XX əsrin ikinci yarısından, siyasi iqtisadi və sosiyal reallıqda qədəm qoymuşdur. Aİ hazırki dövr üçün ən optimal modeldir və öz yetkin mərhələsinə çatmışdır.

***HAŞİYƏ***

XIX əsrin ikinci yarısından sonra Afropa İtaliya və Almaniyanın siyasi birləşməsi təcrübəsini yaşadı, inteqrasiya ideyalarının reallaşmasına isə ardıcıl dünya müharibələri mane oldu. Bü dövrdə Avropada inteqrasiya idealları əsasən ABŞ-in federasiya modelinə əsaslanırdı və həmin ideyalar «Avropa Federasiyası» şəkilində təqdim olunurdu. Həmin dövrdə bir neçə fərqli inteqrasiya fikirləri səslənmişdi. Məsələn, 1930-cu ildə Fransanın xarici işlər naziri Aristid Briandin modelinə əsaslanan federasiya layihəsi Almaniya tərəfindən Fransanın Avropa heqemonluğunun möhkəmlənməsi planı kimi qiymətləndirilmişdi. Hitler Almaniyası zamanında isə inteqrasiya ideyaları təxirə salınmışdı. «Bu mərhələdə Avropa miqyasında birləşmiş (vahid) iqtisadiyyatdan danışmaq fantaziyadır və eyni məntiqlə «valyuta və gömrük» ittifaqı şuarlarından istifadə etmək və onların bütün problemləri həll edəcəyini düşünmək düzgün deyildir»lə nəticələnib. Demək olar ki, 1947-ci il tarixli Marşal planı xüsusi əhəmiyyət kəsb etmişdir. ABŞ Marşal planını irəli sürməklə Qərbi Avropanın yenidən qurulmasının və iqtisadi bərpasının yalnız inteqrasiya prosesi nəticəsində mümkün olması fikrini müəyyən etdi və Avropa iqtisadi əməkdaşlıq komitəsini yaratdılar.

Beləliklə, müasir Avropa prosesinin başlanğıcını, ideya təməlini Jan Monne (Jean Monnet) olan və polad və kömür sənayesində 50 il müddətində birgə idarəetməni nəzərdə tutan «Şuman Planı»nı təşkil edir. İlk dəfə 1950-ci ildə səsləndirilən bu plan 1952-ci ildə öz bəhrəsini verdi və Avropa kömür və polad birliyi (AKPB) yaradıldı və Fransa, Almaniya, İtaliya, Belçika, Niderland və Lüksemburq həmin birliyə daxil oldu, nəticədə idxal və ixrac rüsumları ləğv edildi.

1955-ci ildə Messina konfransı keçirildi. Nəticədə Avropa atom enerji birliyi (AAEB) və Avropa iqtisadi birliyi (AİB) yaradıldı.

1957-ci ildə Roma müqaviləsi ilə AİB və AAEB birləşdi. XX əsrin 70-ci illərində Avropa inteqrasiyası üçün durqunluq ili olmasına baxmayaraq AİB-nə yeni üzvlər yazıldı.

1973-cü ilin yanvarında Birliyə Böyük Britaniya, Danimarka və İrlandiya qoşuldu. Beləliklə 1981-ci ildə Yunanıstan, 1986-ci ildə isə Portuqaliya və İspaniya üzv oldu.

Avropa şurasının 1991-ci il dekabrında Hollandiyanın Maastrext şəhərində keçirilən sessiyasında AİB-in Aİ adlandırılması müqavilənin mətni bəyənildi və 1992-ci ilin fevral ayının 7-də təsdiq edildi.

1999-cu il yanvarın 1-dən etibarən Aİ-nin vahid valyutası olan Avronun tədavülə bıraxılması ilə nəticələndi. Beləliklə Aİ dünya iqtisadiyyatında aparıcı rolunu özündə saxladı və Avropa inteqrasiyanın yenilikləri ilə davam etməsində irəliləyiş baş verdi.

Maastrext müqaviləsinin 8-ci maddəsinə əsaslanaraq Avropanın liderləri siyasi inteqrasiyanı intensivləşdirmək üçün «ümumavropa vətəndaşlığı» ideyasını bəyan etdilər. Strateji baxımdan Avropa qonşuluq siyasətinin Aİ-nin 2003-cü ilin dekabrında «Avropa təhlükəsizlik strategiyası» sənədi qəbul edildi.

Avropa İttifaqı tərəfindən AQS tətbiqindən əvvəl, həyata keçirilən TACİS, TRACEKA, İNOGATE və TEMPUS proqramları və büdcəyə dəstək proqramları oldu.

«Yeni İpək yolu» adlandırılan TRACEKA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrinin inkişaf proqrammı idi.

TRACEKA (Avropa-Qafqaz-Asiya) nəqliyyat dəhlizi Brüsseldə 3 may 1993-cü ildə 8 dövlətin ticarət və nəqliyyat nazirləri tərəfindən təsis edilmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci il tarixində Bakı şəhərində 9 ölkənin dövlət başçısı,13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyyətinin iştiraki ilə İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans çoxşahəli saziş imzalanmış və Bakı Bəyamnaməsi qəbul edilmişdir. Hökümətlərarası komissiyanın daimi katibliyi Bakı şəhərində yerləşdi (2002-ci il fervralın 21-də). TRACEKA nəqliyyat dəhlizi üzrə yük axını Avropadan Çinə və əksinə Azərbaycan ərazisindən multimodal yükdaşımaların həyata keçirməsində mühüm işlər görüldü.

Dəniz nəqliyyatının inkişafı ilə əlaqədar Azərbaycan Respublikasını Prezidenti 2007-ci il 18 oktyabr tarixli 2443 saylı sərəncamı əsasında yeni Beynəlxalq Dəniz Ticarət limanının tikintisini göstərmək olar.

2010-cu il 3 noyabr tarixində AR Prezidentinin iştirakı ilə liman kompleksinin təməlqoyulma mərasimi oldu. Liman kompleksinin tikintisi 400 ha ərazidə və 3 mərhələdə nəzərdə tutldu. Dəniz üzərindən daşınmanın artması həm Qazaxıstan həm də Türkmənistan limanlarının yenidənqurulma işlərinin aparılmasını zəruri etdi.

Bakı liman kompleksi üçün ayrılmış ərazi sahəsində beynəlxalq nəqliyyat logistika mərkəzinin tikintisi də nəzərdə tutuldu.

Azərbaycanda 7 sentyabr 2016-ci il tarixində DR WORLD (BƏƏ) kompaniyası müqavilə əsasında BBDT liman ərazisində azad iqtisadi zonanın yaradılmasında konsaltinq xidmətlərin görülməsinə cəlb edildi. Buraya Azad iqtisadi zonaya aid olan qanunların təkmilləşdirilməsi, baş planın hazırlanması AİZ texnikiiqtisadi əsaslarının tərtibi işləri daxil edildi.

Böyük İpək yolu kimi qlobal layihələrin əsas mərkəzinə çevrilən Azərbaycan, başqa bir istiqamətdə də tranzit ölkə da ola biləcəyini sübut etdi. Bu «Şimal-Cənub» Beynəlxalq nəqliyyat dəhlizi layihəsi oldu.

«Şimal-Cənub» Beynəlxalq nəqliyyat dəhlizi haqqında saziş 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanıb və 2002-ci il mayın 21-də qüvvəyə minmişdir.

Azərbaycan Respublikası «Şimal-Cənub» Beynəlxalq nəqliyyat dəhlizi haqqında sazişə 2005-ci ildə qoşulmuşdur (948-İİQ nömrəli qanun əsasında). Dəhlizin katibliyi Tehran şəhərində yerləşir. Azərbaycanın «Şimal-Cənub» Beynəlxalq nəqliyyat dəhlizində əhəmiyyətinin yüksək olması onun Şərq-Qərb dəhlizində ən mərkəzi bölgə olmasındadır ki, «Şimal-Cənub» dəhlizinin AR ərazisində Şərq-Qərb dəhlizi ilə kəsişməsidir.

Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinə avtomaqistralların qoşulması ölkəmizin iqtisadi maraqlarına uyqundur. Bu da yüklərin, o cümlədən tranzit yüklərin daha geniş cəlb olunmasına, yük həcminin çoxalmasına və gəlirlərin artmasına, nəqliyyat infrastrukturunun inkişafına, iş yerlərinin açılmasına, sosial problemlərinin həllinə şərait yaratmaq deməkdir.

Ələt — Astara magistral yolunun dünya standartları tələblərinə cavab verməsi Azərbaycana xeyli vəsaitə qənaət etməyə imkan verir, bu da həm yolun qısalması və həm də rahat olmasıdır. Beləliklə Azərbaycanın günügündən artan iqtisadi qüdrəti və yüksək inkişaf tempi beynəlxalq layihələrin hesabına daha da güclənir. Ölkəmiz nəqliyyat dəhlizlərin mərkəzinə çevrilir, dəmir yolu vasitəsi ilə Qara dənizlə birləşir.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq sazişin texniki əlavələri daha cəlbedicidir. Belə ki, tərəfdaş ölkələrin təhsil müəssisələrinin Avropadakı universitetlərlə əməkdaşlığının yaradılmasına kömək bunun bariz nümunəsidir. 1990-ci ildən yaranan layihə 27 ölkəni əhatə edir. Buraya informasiya texnologiyasının yaradılması və tətbiqi idarəetmələrin təkmilləşdirilməsi və sairələr daxildir.

Aİ-nin Rusiyadan başqa 11 MDB dövləti ilə birgə həyata keçirdiyi beynəlxalq enerji proqramı İNOGATEdir. 1999-cu ilin iyul ayında Aİ 15 dövlətin iştirakı ilə (Azərbaycan da daxil olmaqla) imzalanan dövlətlərarası neft və qaz ixracı nəzərdə tutan çərçivə sazişi imzalandı və aşağıdakilarla razılıqa gəldilər:

– Aİ-nın daxili enerji bazarının tənzimlənməsi;
– enerji təhlükəsizliyinin gücləndirilməsi;
– enerjidən səmərəli istifadə;
– enerji layihələrinə investisiyanın cəlb edilməsi.

Müstəqillik dövründən başlayaraq Aİ ilə Azərbaycan arasında əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli əsaslarda inkişaf etmişdir.

Azərbacanın xarici siyasətində Avropa strukturlarına inteqrasiya və Avropa ölkələri ilə əməkdaşlığın dərinləşməsi prioritet istiqamətlərdəndir. Müasir dunyada ən nüfuzlu dövlətlərdən biri olan Almaniya ilə münasibətlərin inkişaf etdirilməsi Azərbaycan Respublikası üçün çox faydalı oldu.

Ümummilli liderimiz 1996-cı ildə Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verdi. Avropa birliyindən 303,3 milyon avro yardımın 140 milyonu Almaniyanın payına düşdü.

2004 — 2005 illərdə ikitərəfli biznes münasibələrinin inkişafı üçün Almaniya tərəfindən 17 milyon avrolu yardım təsis edildi. Ticarət münasibətlərinin inkişafı üçün Almaniya-Azərbaycan Assosiasiyası fəaliyyətə başladı və təşkilata 40 alman şirkəti daxil oldu. Məlum olduqu kimi Azərbaycanda ən çox məşhur olan alman şirkəti «Siemens»dir. Bu şirkət 1864-cü ildə Qədəbəydə miss mədənini almış və uzun müddət Azərbaycanda səmərəli fəaliyyət göstərmişdir. 1997-ci ildən «Siemens» şirkəti yenidən Azərbaycanda fəaliyyətdədir.

Dövlətimizin başçısı 2004-cu ilin avqustun 24-dən 26-dək Almaniya Federativ Respublikasında rəsmi səfərdə olmuşdur. Dövlətimizin başçısı qeyd etmişdir ki, Azərbaycanda Almaniya şirkətləri ilə enerji və infrastruktur sahələrində əməkdaşlıq etmək və fəaliyyət göstərmək üçün gözəl şərait mövcuddur. Beləliklə Azərbaycan təkçə regionda deyil, Avropa ailəsində öz layiqli yerini tutmaqda davam edir.

Siyasi münasibətlər AR və AFR arasında müstəqillikdən sonra 1992-ci ildə öz həllini tapdı.1992-ilin fevralında Almaniya Federativ Pespublikasi Azərbaycanı müstəqil bir dövlət kimi tanıdı, diplomatik nümayəndəliklər — səfirliklər yarandı.

1992-ci ildən başlayaraq nümayəndəliklər səviyyəsində qarşılıqlı görüşlər keçirildi.1993-1996-ci illərdə münasibətlər aktivləşdi.1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bundestaqın Qafkaz üzrə komissiya sədri cənab Billi Bummeri qəbul etdi. 1995-ci ilin yanvarında H.Əliyev Davosda AFR-nin prezidenti R.Hersoqla, 1995-ci ilin mayında isə kansler H.Kol ilə görüşdü.

Azərbaycanla Aİ ilə əlaqələrin inkişafı azərbaycan-alman əlaqələrini daha da sürətləndirdi.

2004-cü ilin aprelində alman XİN nümayəndə heyətinin Azərbaycana gəlişi münasibətlərin inkişafına səbəb oldu.

2004-cü ilin 24-26 avqustunda Azərbaycanın Prezidenti İlham Əliyev Almaniyaya səfər etdi. İqdisadi və mədəni əlaqələr daha da möhkəmləndi. AR Prezidentinin yeni görüşü 2007-ci ilin 14-16 fevralında oldu. Azərbaycan Respublikasının Prezidenti bu görüşdə Almaniya Federativ Respublikasının kansleri Angela Merkellə görüşdü. Danışıqlarda AR və AFR arasında olan perspektiv inkişaf məsələsi əsas yer tutdu.

15 fevralda «Azərbaycanın XIX əsrdə inkişafı və perspektivi» mövzusu Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş tədbirdə müzakirə edildi. Müzakirədə Acərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etdi.

Avropa və Asiyanı birləşdirən Bakı-Tiflis-Kars dəmil yolu, Bakı-Tiflis-Ceyxan əsas neft və qaz ixrac boru xətti, Baki-Tiflis-Ərzrum qaz xəttinin əhəmiyyəti qeyd edildi. Azərbaycana humanitar və texniki köməklik edən ölkələr sırasında Almaniya əsas yer tutdu.

Belə ki, ermənilər tərəfindən Azərbaycana edilən təcavüz nəticəsində qaçqınlar üçün Bərdə, İmişli və Naftalanda şəhərciklər salındı və tibbi ləvazimətlərlə təmin edildi.

2005-ci ildə Bakıda Alman və Azərbaycan sahibkarların işçi konfransı keçirildi və konkret olaraq əməkdaşlıq sahələr müəyyən edildi.

10 iyun 2007-ci ildə Bakıda Azərbaycən-Alman enerji forumu keçirildi və Azərbaycanın energetika təhlükəsizliyində rolu və ikitərəfli enerqetik əməkdalığı məsələsi müzakirə edildi.

***Nazim ƏRƏBOV.***